Ədəbiyyat qəzeti

# Eşqdir mehrabı uca

Ağlayanda da, güləndə də -
Bütün gözəlliklər səndə,
Bütün eşqlər məndə.

## QARACAOĞLAN

* * *

Gözəl, nə gözəl olmusan,
Görülməyi-görülməyi.
Siyah saçın yumrulanmış,
Hörülməyi-hörülməyi.

Məndili yudum, arıtdım ,
Gül budağında qurutdum.
Adın nə idi, unutdum,
Sorulmayı-sorulmayı.

Mənim yarım məndən küsmüş,
Zülfünü gərdana düzmüş...
Məhəbbətin məndən kəsmiş,
Sevilməyi-sevilməyi.

Çağır, Qaracaoğlan, çağır,
Daş düşdüyü yerdə ağır.
İgid sevdiyindən soğur ,
Sarılmayı-sarılmayı.

### QOŞMA

Əgər mənim ilə getmək istəsən,
Əylən, gözəl, yaz olsun da gedəlim.
Bu vaxtları bizim ellər keçilməz,
Yollar çamur, qurusun da gedəlim.

Aşammazsan Qaramanın elini,
Körpüsü yox, keçəmməzsən selini,
Gərdan yaylasının Pərçəm belini
Gül-çiçəklər bürüsün də gedəlim.

Ərzurum dağının qarı çəkilsin,
Gün vursun, yamacda buzu sökülsün,
Dümağ sular ovalara tökülsün,
Körpə quzu yürüsün də gedəlim.

Qaracaoğlanım sözün söyləsin,
Enib eşqin dəryasını boylasın.
Sevdiciyim, bu ay olmur-olmasın,
On bir ayın birisində gedəlim.

### YAYLADAN ENƏRKƏN

Yayladan enərkən bir gözəl gördüm,
Ağlar məlul-məlul, bilməm nədəndir.
Al yerinə qaraları başına
Bağlar məlul-məlul, bilməm nədəndir.

Başım ağrar, qulaqlarım çınlar,
Yaralarım göz-göz olub, yenilər,
Xəstələrin dərdi vardır, inilər
Sağlar məlul-məlul, bilməm nədəndir.

Kirmani də qılıncımız kirmani,
Daşı dələr mızrağının təmrəni,
Böylə imiş padişahın fərmanı -
Dağlar məlul-məlul, bilməm nədəndir.

Qaracaoğlan der ki, dinlən sözümü,
Eşq yolunda fəda etdim özümü,
Tökülmüş yarpağı, solmuş üzümü -
Bağlar məlul-məlul, bilməm nədəndir.

### GÜL GƏRƏK MƏNƏ

Sevdiyim, qəlbimi açmaqçın sənə
Bülbül dili kimi dil gərək mənə.
Ürəyim kül oldu alışa-yana,
Onu söndürməyə sel gərək mənə.

Haldan anlar isən, haldaş olalım,
Qürbət gəzdin isən, yoldaş olalım,
Atasız, anasız qardaş olalım,
Ucu yar zülfündə yol gərək mənə.

Qaracaoğlan der, Bayburt elləri,
Əsə-əsə bizə gəlir yelləri...
Burmalanmış yar üzünün telləri,
Ona taxılacaq gül gərək mənə.

## Yunus ƏMRƏ

### GƏL GÖR MƏNİ EŞQ NEYLƏDİ

Könlüm verdim bir sevdaya,
Gəl gör məni eşq neylədi.
Başımı saldım qovğaya,
Gəl gör məni eşq neylədi.

Eşq boyadı məni qana,
Naçar qaldım yana-yana.
Nə ağıllı, nə divanə,
Gəl gör məni eşq neylədi.

Məcnun oluban yürürüm,
Yarı düşümdə görürüm,
Oyanıb məlul olurum,
Gəl gör məni eşq neylədi.

Gah əsərəm yellər kimi,
Gah ötərəm dillər kimi,
Gah çağlaram sellər kimi,
Gəl gör məni eşq neylədi.

Ağlım aldı, məst eylədi,
Dərdə, qəmə dost eylədi,
Öldürməyə qəsd eylədi,
Gəl gör məni eşq neylədi.

Bənizim ağ, gözlərim yaş,
Bağrım para, ciyərim daş,
Qəm anlayan qəmli qardaş,
Gəl gör məni eşq neylədi.

Miskin Yunus, biçarəyəm,
Başdan ayağa yarayam,
Yar əlindən avarayam,
Gəl gör məni eşq neylədi.

### EŞQ

Yar, sənin eşqin oxu necə qat daşdan keçər,
Sevdana düçar olan can ilə başdan keçər.

Günü ah-zar olsa da, səninlə var olur,
Dərdi-səri sən olsan, düğəli işdən keçər.

Ariflərə bu dünya həlalü-düş kimidir,
Kəndini sənə verən həlalü-düşdən keçər.

Başında ağlı olan, var-dövlətlə iş tutmaz,
Hurilərə aldanmaz, göz ilə qaşdan keçər.

Bu dünyanın sevgisi zəhərli aşa bənzər,
Sabahını düşünən zəhərli aşdan keçər.

Gerçək aşiq o kəsdir, canın əsirgəməyə,
Canın əsirgəməyən yar üçün başdan keçər.

Miskin Yunus, o yarı gerçəkdən sevər isən,
Gəl unutma yazın yolu boranlı qışdan keçər.

## Pir Sultan ABDAL

### ÖTMƏ BÜLBÜL

Ötmə bülbül, ötmə, şən deyil bağım,
O yarın dərdindən mən yandım, yandım.
Tükənibdir piltəm, əriyib yağım,
O yarın dərdindən mən yandım, yandım.

Paramparça olmuş sellərə döndüm,
Alovu sozalmış küllərə döndüm,
Vədəsiz açılmış güllərə döndüm,
O yarın dərdindən mən yandım, yandım.

Pir Sultan Abdalam, doldum, əksildim,
Çörəkdən kəsildim, sudan kəsildim,
İpək zülfün kəməndindən asıldım,
O, yarın dərdindən mən yandım, yandım.

### KEÇDİ DOST KARVANI

Şu qarşı yaylada köç qatar-qatar,
Bir gözəlin eşqi başımdan ötər,
Ayrılıq dediyin ölümdən betər,
Keçdi dost karvanı, əyləmə məni.

O yar könlümdəki taxtda oturur,
Naz-qəmzəsi, dərdi məni bitirir,
Ayrılığı mənə zülüm gətirir,
Keçdi dost karvanı əyləmə məni,

Mən gedərsəm, sonam, sakın, ağlama,
Ciyərimi eşq oduna dağlama,
Məndən özgəsiylə ilqar bağlama,
Keçdi dost karvanı, əyləmə məni.

Gedər isəm, bu yer sənə yurd olsun,
Müvafiqlər aramızda qurd olsun,
Yar həsrəti yar qəlbində dərd olsun,
Keçdi dost karvanı, əyləmə məni.

Pir Sultan Abdulam, dağlar aşalım,
Aşalım da, dost ellərə düşəlim,
Çox sofanı sürdüm, halallaşalım,
Keçdi dost karvanı, əyləmə məni.

### BİZ TARİXİ-EŞQİN AŞİQLƏRİYİK

Biz tarixi-eşqin aşiqləriyik,
Başü-can vermişik, canan bizimdir.
Qəmdən nə qaçarsan, divanə könül,
Kaşanə bizimdir, mehman bizimdir.

Arifə bir eyham kafidir, kafi,
Sirrə məhrəm olan eyləməz lafı,
Çıx aradan, sufi deyilsən, safi,
Təkkəi-eşq içrə dövran bizimdir.

Əmrah, bu məqamda olandır veli,
Haqqa yaxın haqqa görünür dəli.
Əlbət, xata bizdə, demişik, bəli,
Yazılan əhd ilə peyman bizimdir.

### BİR NAZƏNİN MƏNƏ GƏL-GƏL EYLƏDİ

Bir nazənin mənə gəl-gəl eylədi,
Varmasam inciyir, varsam inciyir.
Bəyaz gərdanını, incə belini
Sarmasam inciyir, sarsam inciyir.

Qaşına çəkilmiş qüdrət qələmi,
Görməmiş dünyada dərdü-ələmi,
Hər səhər, hər axşam verir salamı,
Almasam inciyir, alsam inciyir.

Çən getdi, göründü yarın elləri,
Əksilmir başımdan sevda yelləri.
Açılıb bağında qönçə gülləri,
Dərməsəm inciyir, dərsəm inciyir.

Gör hardan haraya sevmişəm yarı,
Sevdası od olub, yandırır məni.
Aşıq Əmrah deyər belə bir canı
Sevməsəm inciyir, sevsəm inciyir.

## Nazim HİKMƏT

### XOŞ GƏLDİN

Xoş gəldin, qadınım, xoş gəldin!
Yorulmusan,
nə gül suyum var, nə gümüş ləyənim,
yuya bilim ayaqlarını.
Susamısan,
buzlu şərbətim yoxdur ki, ikram eləyim.
Acmısan,
ağ örtüklü süfrədə olmayacaqsan qonağım...

Xoş gəldin, qadınım, xoş gəldin!
Ayağını basdın otağıma,
qırx illik beton çəmənə döndü.
Güldün,
güllər açıldı pəncərəmin dəmirlərində.
Ağladın,
ovuclarıma töküldü incilər.
Könlüm kimi zəngin
Hürriyyət kimi aydınlıq oldu otağım.
Xoş gəldin, qadınım, xoş gəldin!

### NİNNİ

Ruhum!
Gözlərini astaca yum
Və girər kimi suya,
gir yuxuya,
çılpaq və ağappaq...
Röyaların ən gözəli gözləyir səni,
ninni.

Ruhum!
Gözlərini astaca yum,
zənn et ki, qoynumdasan,
ninni.
Yuxunda unutma məni,
ninni.
Gözlərini astaca yum,
yaşıl-ala gözlərini,
ninni ruhum,
ninni...

# göylərin



## Behcət Kamal ÇAĞLAR

### İSTƏYİRƏM

*Bir çiçək istəyirəm, mən baxmadan solası,*
*Bir qanad istəyirəm, məni yerdən alası,*
*Bir günəş istəyirəm, gecə məndə qalası.*

*Bir mərmər istəyirəm, arzumca oymaq üçün,*
*Bir qadın istəyirəm, ruhunu soymaq üçün,*
*Bir cüt diz istəyirəm, başımı qoymaq üçün.*

*Bir zəncir istəyirəm, hirsimi bağlayacaq,*
*Bir yangı istəyirəm, ruhumu dağlayacaq,*
*Bir ana istəyirəm, üstümdə ağlayacaq.*

*Bir bilinməz qalanı fəth etmək təkbaşına,*
*Vurulub düşmək birdən son bürcün, son daşına,*
*Uzanan bir cüt dodaq gözlərimin yaşına.*

*Bir ilham istəyirəm, bir gün vəhyə erəcək,*
*Bir cüt göz istəyirəm, can evimi görəcək,*
*Bir sevgi istəyirəm, ömürlərcə sürəcək.*

*Bir mehrab istəyirəm, önündə diz çökməyə,*
*Bir yer istəyirəm yoldan, fidan dikməyə,*
*Bir toxum istəyirəm, boş torpağı əkməyə.*

*Bir bina, təməlinə əlimlə daş qoyacaq,*
*Bir sevgili, hər dərdin gözünə yaş qoyacaq,*
*Bir iman istəyirəm, uğruna baş qoyacaq.*

### QÜSURSUZ EŞQ

Artıq qal deməyəcəyəm,
Zatən getməyə də
çox hazırsan bu səfər.
Hər şeyi götür -
xatirələrimi, ümidlərimi, sevgimi -
bəlkə lazımın oldu.
Bir kəlmə də danışmayım deyirəm,
Amma yox,
Danışacağam,
Tanıdığını zənn etdiyin məndən.
Bəzən birini seçsəm də,
rənglərin hamısını sevdim,
mövsümlərin də.
Dənizdən gələcək bir gəmi
gözlədim hər zaman,
Sonra ulduzlara baxdım illərcə,
daha doğrusu,
sən zənn etdiyim bir ulduza.
Şəhərlər gördüm -
hamısını da sevdim,
Eşqlərim də oldu,
həm də uğurunda ölə biləcəyim eşqlərim,
amma ən çox səni sevdim.
Və indi gedirsən, get,
düşünürəm qəhr olmayacağam
vida səhnəsində...
Amma bilmirəm necə yaxşıdı?
Məni yuxuya verib getməyin,
Yoxsa, elə-belə: üz-üzə, deyə-gülə?..
Məncə indi get,
Yox, getmə!
Yəni, get də,
Mən uzanım belə,
əvvəlcə üstümü ört,
işığı söndür və get.
Yox, yox, getmə!
Yəni, get də,
amma əvvəlcə işığı yandır -
mən qaranlıqdan qorxuram.
Həm qaranlıq, həm səssizlik -
bir az artıq olmadımı?
Üstümü də örtmə -
bu şəfqət də bir az artıq...
Amma işıqların hamısını yanılı qoy!
İçim dağılır -
fərqi yoxdu
sən necə gedirsən, get...
Dur, qəlbimi dinlə,
Son dəfə deyirəm
Səni sevirəm.
Peşman deyiləm.
İstər dön, istər dönmə,
Səninləyəm, səninləyəm, səninləyəm.

## Ümid Yaşar OĞUZCAN

### BİLMƏZSƏN

Sən, qum nədi, bilməzsən,
Dəniz görmədin ki...
Yum gözlərini, düşün, düşün -
Dəniz bir gözündə,
Qum bir gözündə.

Sən, daş nədi, bilməzsən,
Dağlara çıxmadın ki...
Yüyür, yüyür
üfüqlərə doğru -
Bulud bir ayağında,
Dağ bir ayağında.

Sən, kül nədi, bilməzsən,
Tonqal qalamadın ki...
Uzat əllərini göyüzünə -
Od bir əlində,
Kül bir əlində.

Sən, qan nədi, bilməzsən,
Ölmədin,
öldürmədin ki...
Tirtap yıxıl torpağa -
Ölüm bir yanında,
Qan bir yanında.

Sən, eşq nədi, bilməzsən,
Sevmədin ki...
Ağlayanda da, güləndə də -
Bütün gözəlliklər səndə,
Bütün eşqlər məndə.

### GETMƏ

Sənə şeirlər oxuyacağam, getmə,
Günəşlər doğacaq yalnızlığımdan.
Sənə bir işıq bəxş edəcəyəm
Qəlbimin aydınlığından.

Sənə ümid dolu eşq gətirəcəyəm,
Kiçik əllərinə sığmayacaq.
Sənə Afrika gecələrini gətirəcəyəm,
İstidən yanaqların allanacaq.

Sənə çiçəklər gətirəcəyəm,
Xəzan vurmuş payız bağçalarından.
Sənə bir sərinlik gətirəcəyəm
Tap-tup yağış damlalarından.

Sənə səbət-səbət ulduz gətirəcəyəm,
Günəşdən başqa, Aydan başqa.
Sənə əngin dənizlərin,
maviliyini gətirəcəyəm,
Köpük-köpük, dalğa-dalğa.

Sənə bir rüzgar gətirəcəyəm,
Dağlardan, təpələrdən.
Getmə, sənə həyat gətirəcəyəm,
Həyatın bitdiyi yerdən.

## Yavuz Bülənd BAKİLƏR

### TƏK SƏN BİLMİRSƏN

Gecə qurğuşun kimi enər üstümə birdən,
Xəyalın çıxıb gələr uzaqlardan qarşıma.
Sonra ürəyimi bir qara sevda bürüyər,
Amma sən duymazsan duyduğumu ha...

Nə bir türkü oxuyarsan gizlicə ağlayaraq,
Nə bir dərdin yara kimi
göz-göz açılar.
Nə bir qayğı alar səni
axşam vaxtı qəflətən,
nə yuxuların qaçar.

Danışsam da bir, sussamda bir,
İllər boyu ürəyimdə böyüyən sirsən.
Bir bahar küləyi kimi yüngülcə
Saçlarına toxunsam,
yenəmi inciyərsən?

Qaçdım səhər-səhər - çox uzaqlara,
Boş yerə qürbət acısı daddım.
Nələr etmədim səni unutmaq üçün,
Boş yerə, boş yerə özümü aldatdım.

Duydum mənası yoxmuş uzaq qalmağın,
Səni qədər kimi alnıma yazan haqdır.
Duydum, duydum artıq unutmaq yox,
Səni dəli kimi sevmək yaşamaqdır.

Bir həlim küləksən, üzümə dəyən,
Ürəyimi yaxan bir ovuc közsən.
Yer-göy bilir səni sevdiyimi,
Tək sən bilmirsən,
Tək sən bilmirsən.

## Cahid Sıtqı TARANCI

### DESƏM Kİ...

Desəm ki, vaxtlardan bir aprel axşamıdır,
Rüzgarların ən sərini səndən əsir,
Səndə seyr edirəm dənizlərin ən mavisini,
Ormanların ən qalınını səndə gəzməkdəyəm,
Səndən qopardım çiçəklərin ən ətirlisini,
Səndə daddım meyvələrin cümləsini .

Desəm ki...
İnan mənə, sevdiyim, inan,
Evimdə şənliksən, bağçamda bahar,
Dağlara, dənizlərə, ulduzlara qoşulub,
Söz açıram gözəlliyindən.
Bir gün səsimi duymasan,
Bil ki, ölmüşəm,
Bil ki, məşhər günüdür,
Bil ki, meydanda səni axtarıram.

## Özdəmir ASƏF

### MƏN DEYİLDİM

Bir axşamüstü pəncərədən baxırdın,
Yollara ağır-ağır enən qaranlığa.
Mənə bənzəyən biri keçdi evinin önündən,
Başladı ürəyin bərk-bərk döyünməyə,
O keçən mən deyildim.

Bir gecə yatağında uyuyurdun,
Oyandın birdən-birə...
əsdi əlin-ayağın...
Qaranlıq içindəydi otağın...
Yuxunu qaçıran mən deyildim.

Mən çox uzaqdaydım o zaman,
Gözlərin doldu,
başladın səbəbsiz yerə ağlamağa,
Yanağındakı yaşı silən mən deyildim.

Bir kitab oxuyurdun, fikirli-fikirli,
Romanın sonunda
İnsafsız adamlar
öldürdülər bir gənci.
Qorxdun,
başladın hönkür-hönkür ağlamağa,
O ölən mən deyildim.

## Əhməd ARİF

### TƏRK ETMƏDİ SEVDAN MƏNİ

Ac qaldım, susuz qaldım,
Tütünsüz, yuxusuz qaldım,
Xain, qaranlıq gecə.
Can qərib, can susqun,
Can paramparça...
Qollarımda kələpçə...
Tərk etmədi sevdan məni,
Tərk etmədi sevdan məni...
Yoxluğun cəhənnəmin cəhənnəmi,
Üşüyürəm, yumma gözlərini.

*Hazırladı:*
***DİLSUZ***



**Səndən qopardım çiçəklərin ən ətirlisini**